# Ya Qarabağ, ya ölüm! Özgə çarə yox artıq!...



**Fatma İSRAFİLOVA,**
Zaqatala şəhər 1 nömrəli tam orta
məktəbin direktoru, əməkdar müəllim

Neçə ildir qan sorur, torpağımız, daşımız,
Neçə ildir qurtarmır müqəddəs savaşımız...
Neçə ildir şəhiddir bacımız, qardaşımız
Neçə ildir köçkünük, didərginik, qaçqınıq,
Ya Qarabağ, ya ölüm! Özgə çarə yox artıq!

Qan çanağı çəlləyi qan selləri doyurmaz,
Baş kəsən cəlladları ah-nalələr soyutmaz...
Qarğa-quzğun qonmaqla qırçın qaya oyulmaz!...
Təpərimiz tükənsə şəhidləri haylarıq
Ya Qarabağ, ya ölüm! Özgə çarə yox artıq!

Necə baxım körpənin gözdən axan selinə,
Qurban olum ananın ağı deyən dilinə
Güc-qüvvət ver, Allahım, Azərbaycan elinə!
Qüdrətinlə Tuğ nədir, Ağkilsəyə çatarıq,
Ya Qarabağ, ya ölüm! Özgə çarə yox artıq!

Şuşa yaylaqlarında xarı bülbül bitməmiş,
Kəlbəcərdə Şəmşirin sazı dil-dil ötməmiş,
Ağdam, Laçın, Qubadlı, Zəngilana yetməmiş
Bu qisası, qiyamı qiyamətə qoymarıq
Ya Qarabağ, ya ölüm! Özgə çarə yox artıq!

Haydı, ərən igidlər, haydı qana-qan deyin,
Yağılara, yadlara qalmaz bu meydan deyin,
Bir ovuc torpağımız şirindir candan deyin
Deyin ki, ölməmişik, söyləyin ki, biz varıq,
Ya Qarabağ, ya ölüm! Özgə çarə yox artıq!

Tükənməyib xalqımın dəyanəti, qeyrəti,
Dağ üstünə dağ qoyar dağlar qədər qüdrəti...
Vulkan kimi püskürüb, çalxalanıb millətim
Şəhid kimi ölərik, Qazi kimi yaşarıq!
Ya Qarabağ, ya ölüm! Özgə çarə yox artıq!!!